# Londonda Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilən ənənəvi anım konserti

### *Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib*





"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Londonda Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) təşkilatçılığı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilən ənənəvi anım konserti keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Anım konsertinin tamaşaçıları arasında rəsmi şəxslər, Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin əməkdaşları, bu ölkədə fəaliyyət göstərən Azərbaycan təşkilatlarının təmsilçiləri, ictimaiyyətin nümayəndələri, Londonda yaşayan həmvətənlərimiz və müxtəlif universitetlərdən tələbələr də olublar.



Konsertdən əvvəl çıxış edən TEAS-ın direktoru Lionel Zetter Xocalı soyqırımı haqqında məlumat verib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən L.Zetter ədalətin tezliklə bərpa ediləcəyinə inandığını deyib.

Sonra Avropa Azərbaycan Cəmiyyətinin sədri Tale Heydərov çıxış edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışıb. O, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğunu, 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirib. TEAS-ın sədri Xocalı faciəsi zamanı yüzlərlə əliyalın soydaşımıza divan tutulduğunu vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının fəaliyyəti haqqında məlumat verən Tale Heydərov kampaniya çərçivəsində Azərbaycan həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində görülən uğurlu işlərdən də bəhs edib.

Anım konsertində azərbaycanlı musiqiçilər Səbinə Rakçeyeva, Nəzrin Rəşidova (skripka), Rafiq Rüstəmov (tar), Günel Mirzəyeva, Ayan Salahova (piano), Camal Əliyev (çello), Selcan Nəsibli (soprano), həmçinin Aleksander Cermanoviç (piano) və "Deco" ansamblının ifasında Fikrət Əmirovun, Qara Qarayevin, Vasif Adıgözəlovun, G.Perqolesinin, J.Massenetinin repertuarından musiqilər səsləndirilib.

**AZƏRTAC**